İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ





# Nazirlər Kabineti yanında

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

## İllik hesabat

## 2016-cı il

# Hesabat 2016

## Mündəricat

**Giriş** ........................................................ 2

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** ........................................................ 2

**Azərbaycanda səhiyyənin maliyyələşmə modeli** ........................................................ 3

İcbari tibbi sığortanın maliyyə mənbələri ........................................................ 4

İcbari tibbi sığortada təminat və istisnalar ........................................................ 4

Tibbi xidmətlərin maliyyələşdirilməsi ........................................................ 4

İcbari tibbi sığortanın pilot qaydada tətbiqi ........................................................ 5

**İcbari Tibbi Sığorta sisteminin tətbiqi ilə əlaqədar təşkilati məsələlər** ........................................................ 5

İnformasiya sistemləri və elektronlaşma ........................................................ 5

Maliyyə-təsərrüfat fəaliyyəti ........................................................ 6

İctimaiyyətlə əlaqədar fəaliyyətlər ........................................................ 7

# Giriş

Azərbaycanda əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması, keyfiyyətli tibbi xidmətlərin həyata keçirilməsinin stimullaşdırılması, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması istiqamətində ən mühüm tədbirlərdən biri icbari tibbi sığortanın tətbiq edilməsidir. Bu məqsədlə 2016-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin əsasnaməsinin və strukturunun tətbiq edilməsi, icbari tibbi sığortanın tətbiqi üçün hazırlıq işlərinin aparılması, baza (əsas xidmətlər) zərfinin təsdiq edilməsi və icbari tibbi sığortanın pilot qaydada tətbiqinə başlanılması icbari tibbi sığortanın ölkəmizdə tətbiqinə şərait yaradıb.

Hazırkı hesabatın məqsədi icbari tibbi sığorta sahəsində ictimaiyyətin məlumatlandırılması, bu istiqamətdə mövcud yanaşmanın və icbari tibbi sığortanın tətbiqinə hazırlıq məqsədilə görülmüş işlər barədə məlumatların təqdim edilməsidir.

## İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

Azərbaycanda səhiyyə sahəsi daim milli sosialyönümlü siyasətin prioritetləri arasında mühüm yer tutub. Bu sahəyə dövlət tərəfindən əhəmiyyətli sərmayə qoyuluşu, səhiyyədə texnoloji innovasiyaların və müasir müayinə-müalicə üsullarının tətbiqi ölkəmizdə yüksək keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə imkan yaradıb. Əhalinin artmaqda olan tibbi xidmət ehtiyaclarının qarşılamaq və səhiyyənin uzunmüddətli inkişafına nail olmaq məqsədilə bu sahədə dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması və mövcud resursların daha səmərəli istifadəsi tələb olunur.

İcbari tibbi sığorta (İTS) səhiyyəyə sərf edilən vəsaitlərin səmərəli cəmləşdirilməsinə, bu sahəyə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinə, dövlət vəsaitlərinin səmərəli istifadə edilməsinə, əhaliyə müasir və keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsinin stimullaşdırılmasına şərait yaradır.

Azərbaycanda icbari tibbi sığortanın tətbiqi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 765 nömrəli Fərmanı ilə Agentliyin əsasnaməsi və strukturu təsdiq edilib. Bununla yanaşı, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 mart 2016-cı il tarixli 136 nömrəli Qərarı ilə Agentliyin işçilərinin sayı 189 ştat vahidi müəyyən edilib.




**Qrafik 1**

## Azərbaycanda səhiyyənin maliyyələşmə modeli

İcbari tibbi sığorta səhiyyənin maliyyələşmə metodlarından biri olub bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə uğurla tətbiq edilir. Səhiyyənin digər maliyyələşmə metodlarından fərqli olaraq icbari tibbi sığorta əhalinin və dövlətin səhiyyənin maliyyələşməsində aktiv iştirakını təmin etməklə sosial həmrəylik prinsipinə əsaslanır və səhiyyənin daha dayanıqlı maliyyələşmə metodu hesab edilir. İcbari tibbi sığorta səhiyyənin maliyyələşməsi üçün əlavə maliyyə mənbələri cəlb etməklə yanaşı, tibbi xidmətlərin maliyyələşdirilməsi məqsədilə innovativ maliyyələşmə metodlarının tətbiqinə şərait yaradır. İcbari tibbi sığorta tibbi xidmətlərə əlçatanlıq, risklərin cəmləşdirilməsi, vəsaitlərin səmərəli istifadəsi, effektiv idarəetmə, beynəlxalq təcrübənin yerli şəraitə uyğunlaşdırılması və çeviklik prinsiplərini rəhbər tutur.

## İcbari tibbi sığortanın maliyyə mənbələri

İcbari tibbi sığortanın dövlət tərəfindən ayrılan maliyyə vəsaitləri, əhali tərəfindən ödənilən icbari tibbi sığorta haqları və digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. İcbari tibbi sığorta haqqı ödəmə qabiliyyətinə malik olmayan şəxslər üçün sığorta haqları dövlət büdcəsi hesabına maliyyələşdirilir. Bu məqsədlə bir sıra əhali qrupları (18 yaşına çatmamış uşaqlar, əyani təhsil alan tələbələr, işləməyən pensiyaçılar, sosial müavinət alanlar, ünvanlı dövlət sosial yardım alanlar, işsizlik statusu olan şəxslər və hamilə qadınlar) müəyyənləşdirilib. İTS haqqı ödəməsi nəzərdə tutulan əhali qrupları üzrə də məlumatlar toplanmış və təhlil edilmişdir.

## İcbari tibbi sığortada təminat və istisnalar

Epidemioloji-demoqrafik göstəricilər, tibbi xidmətlərdən istifadə tezliyi, tibbi xidmət növlərinin həyati vacibliyi, səhiyyə sisteminin mövcud maddi-texniki imkanları, tibbi xidmətlərin qiyməti və səfərbər ediləcək maliyyə resursları nəzərə alınmaqla baza (əsas xidmətlər) zərfi tərtib edilib. Tibbi xidmətlər zərfi sığorta olunanlar üçün ilkin səhiyyə xidmətləri, ambulator və stasionar tibbi xidmətlər, o cümlədən yüksək vəsait tələb edən bir sıra müalicə və cərrahi əməliyyatlar üzrə təminatları nəzərdə tutur.

“Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2016-cı il tarixli 1127 saylı fərmanı ilə icbari tibbi sığorta tətbiq ediləcək pilot ərazilərdə Baza Zərfinə daxil edilmiş xidmətlər və istisnalar təsdiq edilmişdir.

Baza zərfinə 1829 sayda tibbi xidmət daxil edilib. Bunlardan 480-i ambulator, 677 –i stasionar, 18–i ilkin səhiyyə, 6–ı təcili və təxirəsalınmaz, 23-ü isə fizioterapevtik tibbi xidmətlərə aiddir. Baza zərfi həmçinin 459 adda laborator müayinəyə və 166 adda həyati vacib, dəyəri yüksək xidmətlərə də təminat verir.

Baza zərfi tərəfindən təminat verilməyən xidmətlərin sayı 1186-dır, bu xidmətləri əldə etmək üçün vətəndaşlar rəsmi qaydada ödəniş aparmalıdırlar.

## Tibbi xidmətlərin maliyyələşdirilməsi

Maliyyə vəsaitlərinin səmərəli istifadəsi, şəffaflığın təmin olunması, habelə səhiyyənin davamlı inkişafının stimullaşdırılması məqsədilə tibbi xidmətin müvafiq səviyyələri üzrə müxtəlif ödəniş metodlarının tətbiqi nəzərdə tutulur.

- İlkin tibbi xidmətin maliyyələşməsi: İlkin tibbi xidmət müəssisələrinə müəyyən edilən adambaşına məbləğə və əhatə etdikləri əhali sayına uyğun olaraq ödəniş edilməsi nəzərdə tutulur. Tibbi xidmətin keyfiyyətini artırmaq məqsədilə fəaliyyət nəticələrinə uyğun olaraq, ilkin tibbi xidmət müəssisələrinə illik bonuslar ödənilməsi planlaşdırılır.

- Ambulator və stasionar tibbi xidmətin maliyyələşməsi: Ambulator və stasionar tibb müəssisələrinə hər bir xidmət üçün müəyyən edilən qiymətlərə uyğun olaraq ödənişlərin edilməsi nəzərdə tutulur.

- Təcili və təxirəsalınmaz tibbi yardımın maliyyələşməsi: Təcili və təxirəsalınmaz tibbi yardım xidmətinə hər xidmətə görə ödənişin həyata keçirilməsi nəzərdə tutulur.

### İcbari tibbi sığortanın pilot qaydada tətbiqi

Ölkəmizdə icbari tibbi sığorta sahəsində keçmiş təcrübənin olmadığını, təklif edilən maliyyələşmə mexanizmlərinin hal-hazırda tətbiq edilmədiyini, tibb müəssisələrinin qeyd olunan maliyyələşmə mexanizmləri üzrə təcrübəsinin olmadığını, sözügedən sahədə baza sənədlərin və informasiya texnologiyaları sisteminin işlənib-hazırlanması və tətbiqi zərurətini nəzərə alaraq, icbari tibbi sığortanın ilkin olaraq pilot qaydada həyata keçirilməsi nəzərdə tutulub. “Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanına əsasən pilot layihə Mingəçevir şəhəri və Yevlax rayonunun inzibati ərazilərində icra edilir.

Pilot layihənin həyata keçirilməsi icbari tibbi sığortanın Azərbaycanda tətbiq edilməsi ilə əlaqədar mümkün problemlərin aşkarlanması və səmərəli həlli yollarının tapılması, habelə icbari tibbi sığorta sisteminin tətbiqi sahəsində təcrübənin əldə edilməsinə imkan verəcək.

## İcbari Tibbi Sığorta sisteminin tətbiqi ilə əlaqədar təşkilati məsələlər

### İnformasiya sistemləri və elektronlaşma

İcbari tibbi sığortaya cəlb olunan əhali tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması, əhalinin sığortalanma prosesinin və qeydiyyatının elektron qaydada həyata keçirilməsi, icbari tibbi sığorta çərçivəsində tibb

müəssisələri tərəfindən göstərilən xidmətlər üzrə maliyyələşmənin elektron qaydada aparılması, müvafiq dövlət qurumlarından aidiyyəti məlumatların əldə olunması istiqamətində tədbirlər həyata keçirilib. Proqram təminatlarının, informasiya sistemlərinin, informasiya ehtiyatlarının (məlumat bazalarının), reyestrlərin yaradılması və təkmilləşdirilməsi üzrə təkliflər hazırlanmışdır.

“Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanına əsasən icbari tibbi sığortaya cəlb olunan şəxslərin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatlar, şəxsin iş yeri və gəlirləri, pensiyaçılar, sosial müavinət alanlar, işsiz statusu olanlar, ünvanlı dövlət sosial yardımı alanlar, gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi üzrə məlumatlar, əyani təhsil alan tələbələr, ölüm və doğum faktının qeydiyyata alınmasına dair məlumatlar, tibb müəssisələri üzrə məlumatlar, mövcud tədbirlər proqramları ilə əhatə olunan, həmçinin özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslər üzrə məlumatlar toplanılıb.

Ölkənin sosial-iqtisadi və demoqrafik göstəriciləri üzrə təhlillər aparılmış, icbari tibbi sığortanın daha effektiv tətbiqi və inkişafı üçün istiqamətlər müəyyən edilmiş və islahatların aparılmasına dair təkliflər hazırlanmışdır.

## Maliyyə-təsərrüfat fəaliyyəti

2016-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə Azərbaycan Respublikasının 2016-cı il üçün dövlət büdcəsindən "Büdcə xərclərinin funksional təsnifatı"nın 1410 "Ehtiyat fondları" köməkçi bölməsi üzrə və "Büdcə xərclərinin iqtisadi təsnifatı"nın 282100 "Sair xərclər" yarımmaddəsi üzrə 2000000,00 (iki milyon) manat vəsait açılmışdır. Bu vəsaitin 971955,09 manat hissəsi xərclənmişdir. Həmçinin, 2016-cı ilin sonuna limit qalığı 1028044,91 manat vəsait təşkil etmişdir ki, bu vəsaitdə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 765 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyinin Əsasnaməsinin 1.5-ci bəndinə əsasən Agentliyin hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

"Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının 10.1. bəndinə əsasən pilot layihənin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il üçün dövlət büdcəsinin 5-ci bölməsinin 6-cı köməkçi bölməsinin 280000-ci 1maddəsindən səhiyyə sahəsində islahatlar üçün nəzərdə tutulmuş 10000000 (on milyon) manat vəsait açılmışdır.

"Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının 5.2-ci bəndini rəhbər tutaraq, Mingəçevir şəhərində və Yevlax rayonunda olan xəstəxanaların balansındakı əmlak pilot layihə başa çatanadək Agentliyin istifadəsinə verilmişdir. Bununla əlaqədar olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun tibb müəssisələrində tibbi avadanlıqlar, daşınar və daşınmaz əmlakın inventarizasiyası həyata keçirilmişdir.

## İctimaiyyətlə əlaqədar fəaliyyətlər

Ölkəmizdə ilk dəfə olaraq tətbiqinə başlanılmış icbari tibbi sığorta haqqında cəmiyyətin maarifləndirilməsi, əhalinin ehtiyaclarının qiymətləndirilməsi və Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ictimaiyyətlə əlaqələr sahəsində tədbirlər həyata keçirilib.

Eyni zamanda, Agentlik fəaliyyətinin KİV-də işıqlandırılması, şəffaflığın təmin olunması məqsədilə görülmüş işlər barədə məlumatların ictimaiyyətə çatdırılmasını təmin edir, press-relizlər, açıqlamalar, bəyənatlar, çıxışlar və s. hazırlayır, müsahibələr təşkil edir.




Qrafik 2

Hesabat ilində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə bağlı KİV-də 2335 material əksini tapıb. Həmin materialların 1765-i onlayn mediada, 442-si qəzetlərdə, 118 veriliş və süjet isə televiziya kanallarında yayımlanıb.

Hesabat ilində istər dövlət televiziyasında, istərsə də, müstəqil telekanallarda maarifləndirici süjetlərə xüsusi önəm verilib.

Canlı yayımlanan verilişlərə qatılaraq, əhalini maraqlandıran bütün məsələlərlə bağlı ətraflı məlumatlar verilib. Bəzi telekanallarda çıxışlar mütəmadi xarakter alıb. Məsələn, AzTV-nin səhər verilişində ayda 1 dəfə olmaqla ən çox maraq doğuran məsələlər ətrafında müzakirələr təşkil edilib. Həmçinin AzTV-nin




**Qrafik 3**

"Günün Nəbzi", "Xəbərlər", ANS TV-nin " Beş barmaq", "Nəzər nöqtəsi", "Hesab vaxtı", İTV-nin "Carçı" informasiya proqramı, "Diqqət mərkəzi", Lider TV-nin "Səda" informasiya buraxılışında, "Ekonomiks" verilişində, Xəzər TV-nin "Xəzərin Səhəri", "Xəzər xəbər" proqramında, ATV-nin "ATV xəbər", "ATV səhər", CBC TV-nin "Xəbərlər" proqramında və "Telelayihə" verilişində, APA TV-nin "Sosium", ARB TV-nin "Regionun sualı", "Xəbərlər", Space TV-nin "Hər gün" informasiya proqramında, ümumiyyətlə, bütün onlayn TV-lərin xəbər və ictimai-siyasi buraxılışlarında Agentliyin fəaliyyəti ilə əlaqədar süjetlər hazırlanıb. Hesabat dövründə 131 KİV-dən sorğu daxil olub və müvafiq qaydada cavablandırılıb.

Agentliyin sosial şəbəkələrdəki fəaliyyətinin tənzimlənməsi və effektivliyinin artırılması üçün "Facebook", "Twitter", "İnstagram" sosial şəbəkəsi üzrə təlimatlar hazırlanıb.

Beş sosial şəbəkədə Agentliyin səhifələri açılıb. Burada nəinki Agentliyin fəaliyyətindəki yeniliklərlə bağlı məlumatlar verilir, istifadəçiləri maraqlandıran suallar cavablandırılır və hətta maraqlı məsələlər müzakirəyə çıxarılır, elanlar yerləşdirilir.

***Agentliyin sosial şəbəkələrdəki səhifələrinin izləyici sayı:***




**Qrafik 4**

***Agentliyin sosial şəbəkələrdəki səhifələrində edilmiş paylaşımların statistikası:***




**Qrafik 5**

Mətbuatda gedən məlumatların keyfiyyətinin artırılması məqsədi ilə jurnalistlərin bilik səviyyəsinin yüksəldilməsinə də diqqət yetirilib. Belə ki, hesabat ilində "İcbari tibbi sığortanın tətbiqi üzrə jurnalistlərin biliklərinin artırılması" mövzusunda təlim keçirilib. Təlimdə iştirak edən 28 jurnalistə sertifikat verilib.

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sosial şəbəkədəki səhifələri:***

Facebook (https://www.facebook.com/its.gov.az/ )

Twitter (https://twitter.com/itsgovaz )

İnstagram (https://www.instagram.com/its.gov.az/ )

Youtube (https://www.youtube.com/channel/itsgovaz)

Linkedin (https://www.linkedin.com/in/itsgovaz)